UOT 37.0

***Xurşud Cəlil qızı İsmayılova,***
*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*

***İradə Baba qızı Sultanova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin baş müəllimi*

# MİLLİ DİLİMİZ – VARLIĞIMIZDIR

***Хуршуд Джалил гызы Исмайлова,***
*преподаватель*
*Азербайджанского Государственного Экономического Университета*

***Ирада Баба гызы Султанова***
*старший преподаватель*
*Азербайджанского Государственного Экономического Университета*

# НАЦИОНАЛЬНЫЙ ЯЗЫК – НАШЕ ДОСТОЯНИЕ

***Khurshud Jalil Ismayilova***
*lecturer at*
*Azerbaijan State Economic University*

***Irada Baba Sultanova***
*senior lecturer at*
*Azerbaijan State Economic University*

# LANGUAGE IS OUR NATIONAL PROPERTY

**Xülasə.** Müasir dövrdə Azərbaycan dili dövlət dili kimi funksional sahələrin genişlənməsi həmahəng inkişaf edir. Dövlətçiliyin mövcud olmadığı mərhələdə isə funksional sahələr genişlənməsinə zəmin yaranmamışdır. Buna görə də Azərbaycan dilinin fəaliyyəti daha çox kitab, yazı və yazılı mətnlərin dilini əhatə edən ədəbi dilin funksionallığı ilə məhdudlaşmışdır. Ona görə də doğru olaraq alimlər, tədqiqatçılar, mütəxəssislər Azərbaycan dilinin ən yüksək ən normativ və daha funksional olan səviyyəsini ədəbi dil adlandırmışlar.
***Açar sözlər:*** *dövlət dili, Azərbaycan dili, müasir, nitq, fəaliyyət*

**Резюме.** В современное время азербайджанский язык развивается в гармонии с расширением функциональных областей, таких как государственный язык. В отсутствие государственности не было оснований для расширения функциональных областей. Таким образом, деятельность азербайджанского языка ограничивается функциональностью литературного языка, который в основном охватывал язык книг, учебников и письменных текстов. Поэтому ученые, исследователи, специалисты справедливо назвали литературным языком высший нормативный и более функциональный уровень азербайджанского языка.
***Ключевые слова:*** *государственный язык, азербайджанский язык, современный, речь, деятельность*

**Summary.** In modern times, the Azerbaijani language is developing in harmony with the expansion of functional areas, such as the state language. In the absence of statehood, there was no reason to expand functional areas. Thus, the activity of the Azerbaijani language is limited by the functionality of the literary language, which mainly covers the language of books, textbooks and written texts. Therefore, scientists, researchers, specialists have rightly called the literary language the highest normative and more functional level of the Azerbaijani language.
***Key words:*** *state language, Azerbaijani language, modern, speech, activity*

Müasir mərhələdə Azərbaycan dili bünövrəsi dahi Heydər Əliyev tərəfindən qurulmuş möhtəşəm bir dövlətçiliklə qorunur və tənzim olunur. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyasının 21-ci maddəsinin birinci bəndi bilavasitə dövlət dili barəsindədir. Bu bənddə deyilir: «Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir». Bunun ardınca isə dilin dövlətçilik təminatı barəsində belə bir cümlə işlədilir: «Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir».

Dövlət dili haqqındakı maddənin ikinci bəndi Azərbaycan Respublikasında həyata keçirilən dil siyasətinin demokratik prinsiplərini əks etdirir. Həmin bənddə deyilir: «Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafım təmin edir».

Respublikamız müstəqillik yoluna qədəm qoyduğu gündən onun zəngin milli-mənəvi keyfiyyətlərindən biri kimi Azərbaycan dilinin daha da inkişaf etdirilməsi üçün perspektivlər açıldı. İlk növbədə Azərbaycan dili respublika Konstitusiyasında dövlət dili kimi təsbit olundu. «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il. «Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında» 09 avqust 2001-ci il tarixli fərmanları qəbul edildi, eləcə də dil haqqında Qanun qəbul olundu. Bütün bunların hamısı ulu öndər Heydər Əliyevin böyük zəhmətinin nəticəsi kimi meydana çıxdı. Bundan əlavə Azərbaycan dili dünyanın ən böyük məclislərindəki kürsülərdən səslənməyə başladı.

Bütün bunlar Azərbaycan dilinə xalqın milli sərvəti kimi qayğı ilə yanaşmağı, onu daha mükəmməl öyrənməyi və gələcək nəsillərə ərməğan etməyi tələb edirdi. Bunun üçün ilk növbədə təhsilin bütün pillələrində Azərbaycan dili təliminin problemlərini müəyyənləşdirmək və həll etmək bir vəzifə kimi qarşıda dururdu.

Azərbaycan Respublikasının dövlət dili Azərbaycan vətəndaşlarının işlətdiyi zəruri informasiya dilidir. Bu dil öz xarakterinə görə ondan istifadə edənlərin hamısı üçün ümumi olan əlamətlərlə səciyyələnməlidir. Başqa sözlə, dildən istifadə baxımından şifahi danışıqda nitq fərqlərinin maksimum dərəcədə aradan qaldırılmasına səy göstərməlidir. Yazılı dildən istifadə zamanı isə hər kəs mövcud icbari normalara əməl etməlidir. Danışıq dilində fərqlərin aradan qaldırılması və icbari normalara əməl etməklə danışıq və yazı dilinin yaxınlaşmasına malik olmaq isə dövlət dilinin formalaşmasının başlıca prinsipidir.

Bu vacib arqumentin yerinə yetirilməsi dil normalarım uzun ömürlü edir. Bugünkü informasiyaların sonrakı dövrlərə, gələcək əsrlərə, nəsillərdən-nəsillərə maneəsiz ötürülməsini təmin edir. Bunsuz dövlət dilinin reallaşmasını təsəvvürə gətirmək də çətindir. Dövlət dili ümumiləşdirici, birləşdirici xarakterə malik olmaqla ümumi istifadə dilinə çevrilə bildiyi üçün burada ayrı-ayrı sosial qruplara xidmət edən üslublar aradan qalxır. Dövlət dilinin yaranması və formalaşması prosesində ümumi normalar bazasında yeni funksional üslublar formalaşmağa başlayır. Dövlət dilinin formalaşmam üçün bütövlükdə, şifahi və ya yazılı dil arasında yaxınlığa nail olmaq birinci şərtdir. Çünki şifahi və yazılı dilin yaxınlığı dövlət dilinin yaradılmasının bazasını təşkil edir. Uzun dövrlərdən hər dövlətçiliklə müşayiət olunan dillərin təcrübəsi bunu bir daha aydın göstərir. Bununla əlaqədar etiraf etmək lazımdır ki, Yaxın Şərq ölkələrinin dilləri kimi ərəb və fars dilləri özünəməxsus ənənələr qazanmışdır. Bu dillərə məxsus qədim yazılı mənbələrdən müasir dövrdə də maneəsiz olaraq istifadə edilir. Həmçinin həmin dillərdə şifahi və yazılı normalar arasındakı yaxınlıqlar informasiya prosesinin intensivliyini təmin edir.

Bu fikri tarixən yazılı və şifahi ənənələri inkişaf etmiş rus, ingilis, fransız, alman və başqa dillər barədə də söyləmək mümkündür. Dövlət dilinin normativ bazasının yaranması onun funksionallığını genişləndirir. Dilin funksiyasının genişlənməsi elm, texnika, hüquq siyasət, diplomatiya dilinin, həmçinin hərbi dilin formalaşmasının əsasını təşkil edir Dövlət dilinin bazasının möhkəmləndirilməsi ana dilinin başqa dillərə məxsus stereotiplərdən yaxa qurtarıb öz funksional vəzifələrinin yerinə yetirilməsində milli qaynaqlardan qidalanmasına yol açır.

Dövlət dili öz funksiyalarını genişləndirdikcə, dövlətçiliyimizin müxtəlif funksional sahələrdə qazandığı nailiyyətlərin dünyaya çıxarılmasına təminat yaranır. Azərbaycan dili üçün indiyədək daha funksional olan sahə şairlərimizin, yazıçılarımızın, bədii sənət ustalarının yaratdığı ədəbi bədii əsərlərdir. Azərbaycan dili

məhz bədii əsərlərlə, eləcə də xalq yaradıcılığının məhsulu olan folklor nümunələri ilə dünyaya çıxmışdır.

Azərbaycan dili müasir dövrdə siyasət və diplomatiya dilinin funksionallığı ilə dünyaya çıxır. Azərbaycan dilinin bu sahədə funksionallaşıb dünyaya çıxmasında böyük siyasətçi diplomat, müasir dünyanın ən məşhur dövlət xadimləri sırasında öz nüfuzu ilə seçilən və fərqlənən Heydər Əliyevin və Heydər Əliyev məktəbinin ən uğurlu davamçısı, siyasətdə və diplomatiyada qalib gəlmək elminə əzmlə yiyələnmiş İlham Əliyevin çox böyük tarixi nailiyyətləri vardır. Bu gün dünyanın bir çox ölkələrində Heydər Əliyevin və İlham Əliyevin siyasi və diplomatik təcrübəsinin öyrənilməsi öz zəruriliyini təsdiq edən bir həqiqətə çevrilmişdir. Buna sübut - 44 günlük II Qarabağ müharibəsində ki qələbəmiz!

"İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir. Atılan addımlar bütün bir məqsədi güdürdü ki, qısa müddət ərzində az itkilərlə düşmənə elə sarsıdıcı zərbə vuraq ki, düşmən məcbur olub torpaqlarımızdan çıxsın. Döyüş meydanında qazanılmış qələbələr siyasi müstəvidə də qələbənin qazanılmasını şərtləndirdi. Əgər döyüş meydanında biz bu qələbəni qazanmasaydıq, inanmıram ki, işğalçı qalan torpaqlardan çıxacaqdı. Necə ki, torpaqlarımızı 30 ilə yaxın müxtəlif yollarla işğal altında saxlamağa can atan düşmən bu işğalı əbədi etmək istəyirdi, biz danışıqlar yolu ilə də heç bir nəticə əldə edə bilməzdik. Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qa-zanmışıq".

"Bu qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik" [5].

Müasir dövrdə Azərbaycan dili dövlət dili kimi funksional sahələrin genişlənməsi həmahəng inkişaf edir. Dövlətçiliyin mövcud olmadığı mərhələdə isə funksional sahələr genişlənməsinə zəmin yaranmamışdır. Buna görə də Azərbaycan dilinin fəaliyyəti daha çox kitab, yazı və yazılı mətnlərin dilini əhatə edən ədəbi dilin funksionallığı ilə məhdudlaşmışdır. Ona görə də doğru olaraq alimlər, tədqiqatçılar, mütəxəssislər Azərbaycan dilinin ən yüksək ən normativ və daha funksional olan səviyyəsini ədəbi dil adlandırmışlar.

Dövlət dili dövlətçiliklə tənzimlənən zəruri informasiya mexanizmidir. Dövlətçilik dilin dayağı, onun struktur və məna cəhətdən inkişaf etməsinin, bir növ hüquqi bazasıdır. Dövlət dili ancaq dövlətçiliyin mövcud olduğu şəraitdə mümkündür. Dövlətçilik yoxdursa, dövlət dili də yoxdur.

Nitq prosesində meydana çıxan fərqlənmələr ümumi istifadə üçün zəruri formalaşmanın baş verməsinə əks təsir göstərir. Dildə fərqlənmə artdıqca anlaşıqlıq azalır. Yeni anla-yışların istifadəsində ciddi problemlər yaranır. Dilə kənar təsirlər çoxalır, xüsusən başqa dillərdən sozalma meylləri artır. Ən başlıcası isə budur ki, dilin informasiya funksiyası azaldıqca zəruri informasiya dili kimi başqa dillərdən istifadəyə meyllər də özünü göstərir. Şifahi dil ilə yanaşı, yazılı dildən istifadə olunursa, onda dilin bu iki qolu arasında da kəskin fərqlənmə müşahidə edilir. Yazılı dildən istifadə məkanı məhdudlaşır. Yazılı dil ancaq müəyyən məhdud sosial qruplar və ya təbəqələr üçün anlaşıqlı olur. Eyni zamanda yazılı dilin özünün zamandan – zamana informasiya ötürmə imkanları məhdudlaşır. Yazılı nümunələr və mətnlərin sonrakı nəsillər üçün anlaşıqlıq hüdudu daralır. Gələcək nəsillər milli və mənəvi keyfiyyətlərin mənimsəməsində varislik imkanlarından bir çox hallarda məhrum olurlar.

Dildə nitq fərqlərinin baş verməsi ilə informasiya imkanlarının azalması, eləcə də yazılı və şifahi nitq arasında qeyri-bərabərliyin yaranması dövlətçiliklə tənzim olunmayan bütün dillərdə labüddür.

Başqa sözlə, dövlətçiliklə müşayiət olunmayan dillər bütövlükdə informasiya kasadlığı dövlətçiliklə tənzim olunmayan dillərdə tarixi bir proses kimi, baş verdiyi kimi müasir proses kimi də müşahidə edilir.

Dil və dövlətçiliyin qarşılıqlı əlaqəsi prosesində, ən vacib məsələ ondan ibarətdir ki, dövlətçilik milli dilə xidmət etsin, onun inkişafına təminat versin, onun informasiya imkanlarının zənginləşməsi üçün hüquqi bazaya çevrilsin, dildaxili normaların sabitləşməsi üçün münbit şərait yarada bilsin. Dövlətçilik dilin keşiyində durursa, dil, xalqın mənəvi sərvətinə çevrilə bilər. Dövlətçilik bu vacib funksiyanı daşıya bilmirsə, dil özünün sak keyfiyyətini itirir, milli mənəvi dəyərlərin qorunub saxlanılması qarşısında çoxlu çətinliklər yaranır. Şübhəsiz ki, yad dilin vasitəsilə və ya başqa dillərin sözləri ilə yüklənmiş dilin imkanlarından istifadə etməklə milli-mənəvi keyfiyyətləri zamandan-zamana çatdırmaq olduqca müşkül bir işdir.

Azərbaycan dili bu gün müstəqil bir dövlətin dili kimi zənginləşmək üçün real imkanlara və münbit şəraitə malikdir. Bu perspektiv Azərbaycan dili üçün məhz müstəqillik mərhələsində əldə edilmişdir.

Azərbaycan xalqının qədim və müqəddəs kitabı olan "Kitabi-Dədə Qorqud"un dili mütəxəssislərdə mükəmməl bir dil təəssüratı yaradır. Dilin informasiya funksiyası: üçün vacib və ən zəruri olan şifahi və yazılı dil bərabərliyi «Kitabi-Dədə Qorqud» dastanlarında özünün bariz ifadəsini parlaq şəkildə əks etdirir. «Kitabi-Dədə Qorqud» dövründən əsrlər keçməsinə baxmayaraq, dastanların mətni əvəzsiz dil nümunəsi kimi yaşamaqdadır. «Kitabi-Dədə Qorqud» dastanlarının dilində müşahidə edilən bu keyfiyyətlər göstərir ki, həmin dövrün dili güclü və möhtəşəm bir dövlətçilik mərhələsi ilə müşayiət edilmişdir. Belə bir mərhələdə dilin zənginləşməsi onun dövlətçiliklə tənzim olunması sayəsində baş vermişdir.

"Kitabi-Dədə Qorqud" mərhələsindən sonrakı dövrlərdə, xüsusən klassik dövrdə meydana gəlmiş dil nümunələrində şifahi və yazılı dil arasında kəskin fərqlərin baş verdiyi müşahidə olunur. Bu istiqamətdəki fərqlər çoxaldıqca anlayışların kütləviləşməsi azalır, yazılı dilin hamı tərəfindən anlaşılması çətinləşir. Beləliklə, şifahi nitqdə areal fərqləri artır, yazılı dil isə müəyyən sosial qrupların nümayəndələrinə xidmət etməyə başlayır. Bəzi hallarda, hətta ən qiymətli bədii və elmi təfəkkürün məhsulları olan yaradıcılıq nümunələri ərəb və fars dillərində yazıya alınır. Bütün bunlar dilin dövlətçiliklə müşayiət edilmədiyi və tənzim olunmadığı dövrlərdə dilə təsir edən sosial hadisələrin nəticəsidir.

Dil dövlətçiliklə müşayiət edilmədiyi və tənzim olunmadığı mərhələdə yazılı və şifahi dil arasındakı fərqlənmələr sabit normaların pozulması ilə nəticələnir. Bu halda isə sabit normalara malik olan bütöv bir dil öz funksiyasını üslublara vermiş olur.

Vahid dil normalarının parçalanması yolu ilə meydana gələn üslubların özlərinə məxsus normaları yaranır. Məhz klassik dövrə məxsus olan xalq danışıq üslubu, yazı və kitab üslubu sabit dil normalarının öz funksiyasını itirməsi nəticəsində peyda olmuşdur. Göründüyü kimi, dövlətçiliyin süqutu dildə sabit normaların pozulmasının və üslubların meydana gəlməsinin başlanğıcıdır. Belə bir məqamda üslublar ayrı-ayrı sosial qruplara xidmət göstərməkdən başqa, özgə bir vəzifə daşımamışdır. Nəzərə almaq lazımdır ki, dövlətçilik olmayan bir mərhələdə xalqın hərtərəfli inkişafını təmin edən funksional fəaliyyət sahələri də mövcud olmamışdır. Bu halda, şübhəsiz ki, meydana gələn dil üslubları da funksionallıq daşıya bilməyərək ayrı-ayrı sosial qruplara və təbəqələrə xidmət göstərmişdir.

Heydər Əliyev ana dilini dövlət dili kimi tanıtmaqla bunun arxasında Azərbaycanın müstəqilliyini, azadlığını, suverenliyini görürdü. Həyat sübut etdi ki, Heydər Əliyev gələcəyi doğru və düzgün qiymətləndirmişdir.

Bu gün isə vəzifə ana dilinin dövlət dili səviyyəsində inkişaf edib dünyaya çıxmasında Heydər Əliyev proqramının həyata keçirilməsinə nail olmaqdan ibarətdir.

Dövlət dili hər bir xalq üçün, onun milli varlığı üçün vacib olan fəaliyyət sahəsidir. Ancaq dünyada elə müstəqil dövlətlər də mövcuddur ki, onlarda dövlət dilini inkişaf etdirmək proqramı yoxdur. Ona görə də belə dövlətlərdə milli dilin fəaliyyəti daxili informasiyaları əhatə etməklə məhdudlaşır. Dünyaya çıxmaqdan ötrü isə başqa nüfuzlu dillərdən rəsmi dil kimi istifadə edilir.

Dünya dövlətləri içərisində başqa dillərdən rəsmi dil kimi istifadə edilməsi təcrübəsi bir çox dillərin həyatında özünə elə möhkəm iz qoymuşdur ki, onu geri qaytarmaq artıq çətinləşmişdir.

Bu mənada Azərbaycan dili müstəqillik

mərhələsində öz müvazinətini itirmədi. Azərbaycan dili özünün zəngin ənənələri bazasında böyük şəxsiyyət Heydər Əliyevin yaratdığı proqram üzrə inkişaf etməkdədir.

Azərbaycan dilinin qədim ənənələri klassik quruluş olan aqlütinativliyə əsaslanır. Bu quruluşun zənginliyi sintaktik mexanizmin lakonik, morfoloji quruluşda əlaqəyaradıcı vasitələrin sistemli, sözyaratma vasitələrinin çoxfunksiyalı və ardıcıl olması ilə səciyyələnir. Azərbaycan dilinin üstünlüyü bundadır ki, bu dildə az sözlə yeni anlayışlar bazasında çoxlu yeni ifadə vasitələri yaratmaq mümkündür.

Ana dilimizin çevik mexanizminin qat-qat canlandırılması və onun funksiyalarının genişləndirilməsi üçün münbit zəmin müstəqil dövlətçilik şəraitidir. Müstəqil dövlətçiliyimiz çiçəkləndikcə ana dilimiz də zənginləşəcək və dünya meydanına çıxmaq üçün qarşısındakı bütün maneələrdən uğurla keçəcəkdir.

**Problemin aktuallığı:** Dövlət dili öz funksiyalarını genişləndirdikcə, dövlətçiliyimizin müxtəlif funksional sahələrdə qazandığı nailiyyətlərin dünyaya çıxarılmasına təminat yaranır.

**Problemin elmi yeniliyi:** Dövlətçiliklə müşayiət olunmayan dillər bütövlükdə informasiya kasadlığı dövlətçiliklə tənzim olunmayan dillərdə tarixi bir proses kimi, baş verdiyi kimi müasir proses kimi də müşahidə edilir.

**Problemin praktik əhəmiyyəti:** Dil və dövlətçiliyin qarşılıqlı əlaqəsi prosesində, ən vacib məsələ ondan ibarətdir кi, dövlətçilik milli dilə xidmət etsin, onun inkişafına təminat versin, onun informasiya imkanlarının zənginləşməsi üçün hüquqi bazaya çevrilsin, dildaxili normaların sabitləşməsi üçün münbit şərait yarada bilsin. Dövlətçilik dilin keşiyində durursa, dil, xalqın mənəvi sərvətinə çevrilə bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı: Azərnəşr, 1996.
2. Azərbaycan Respublikası Prezidentinin «Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında» 18 iyun 2001-ci il tarixli Fərmanı. «Azərbaycan müəllimi» qəzeti 21-27 iyul 2001.
3. “Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu”. Xalq qəzeti, 04 yanvar 2003.
4. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı, Bakı, 1999.
5. https://president.az/articles/46142

**E-mail:** ismayılova@mail.ru

**Rəyçilər:** *fəls.ü. elm. dok.* **G.Ə. Səfərli**
*dos.* **S.H. Cabbarlı**

**Redaksiyaya daxil olub:** 11.03.2021